# “Bizim birliyimizi, xalqımızın, dövlətimizin gücünü heç bir qüvvə sarsıda bilməz”

**Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.**



Samux rayonundan **Cəlal Tağızadə** yazır: “Hörmətli cənab Prezident, bu günlərdə cəbhədə baş verənlər məni bir gənc olaraq çox təsirləndirdi. Sizin komandanlığınızla bu ruhla, bu inamla və ən əsası xalqın gücünü, dəstəyini bu cür hiss edən bir ordunun qarşısını heç bir ordu kəsə bilməz. Cənab Prezident, biz Yeni Azərbaycan Partiyası Samux rayon Gənclər Birliyinin üzvləri Sizin döyüş əmrinizi gözləyirik”.

Sumqayıt şəhərindən **Elvin Kazımlı:** “Hörmətli cənab Prezident, bu günlərdə sərhəd bölgəmizdə güclü ordumuzun düşmənə sarsıdıcı zərbələrlə onların döyüş mövqelərini darmadağın etməsinin şahidiyik. Biz bir vətəndaş olaraq, bir əsgər olaraq hər zaman Sizin yanınızdayıq. Qələbəni səbirsizliklə gözləyirik. Mən ehtiyatda olan əsgər kimi döyüşə hazıram. Biz Sizinlə bir yerdə güclüyük. Sizin döyüş əmrinizi gözləyirik”.

Zəngilan rayonundan **Ayna Zeynalova:** “Hörmətli cənab Prezident, biz gənclərə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Vətənin bu çətin günündə biz gənclər Vətən qarşısında öz borcumuzu qaytarmağa hazırıq. Cənab Ali Baş Komandan, bütün məcburi köçkün gəncləri adından deyə bilərəm ki, hər birimiz əsgərik və bunu Sizin bir əmrinizlə mənfur düşmənə sübut etməyə, Sizin rəhbərliyinizlə öz ata-baba yurdumuzu erməni işğalçılarından təmizləməyə hazırıq”.

Samux rayonundan **Teymur Abdullayev:** “Hörmətli cənab Prezident, Vətənimlə, düşmən qarşısında dərhal birləşən, Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa hazır olan xalqımla bir azərbaycanlı kimi qürur duyuram. Qətiyyətinizə görə Sizə, birləşdiyinə görə xalqıma, əzəli Azərbaycan torpaqları uğrunda döyüşlərdə göstərdikləri rəşadət və mərdliyə görə igid əsgər və zabitlərimizə minnətdarlığımı bildirmək istəyirəm. Sizin döyüş əmrinizi gözləyir və iradənizə inanıram”.